

“Rusiyanın hərbi təyyarələrinin Suriya ərazisini bombalaması Moskvanın ərəb dünyası, Qərb və Türkiyə ilə münasibətlərini bir qədər də gərginləşdirib.

Rusiya hərbi təyyarələrinin Türkiyə sərhədini pozması təsadüfi deyil. Kreml sərhəd pozuntusunu hava şəraiti ilə izah etsə də, Ankara və NATO buna inanmır. Çünki hərbi təyyarələr iki dəfə sərhədi pozub və bir neçə dəqiqə Türkiyə ərazisi üzərində hava uçuşları həyata keçiriblər”.

AzNews.az-ın modern.az-a istinadən məlumatına görə “Atlas” Araşdırmalar Mərkəzinin analizində bu barədə bildirilir.

Rusiyanın ərəb dünyası, Qərb ölkələri və Türkiyəyə göndərdiyi mesajın mahiyyətindən söz açan analitik yazıda bunun səbəbləri belə izah edilir.

Suriya ərazisini ABŞ, Fransa və Türkiyə təyyarələri bombalaya bilirsə, Rusiya da eyni işi görmək hüququna malikdir. İkincisi, Rusiya bununla Suriyada hərbi varlığını təsdiq edir.

Qeyd olunur ki, bunun fonunda Rusiya Xəzər dənizindən də Suriya ərazisini bombaladı.

“Buna Rusiyanın hərbi gəmiləri Suriyadakı məntəqələri Aralıq Dənizi sahilindən də bombalaya bilərdi. Deməli Kremlin Suriyanı Xəzər dənizi üzərindən bombalanmasının geostrateji səbəbləri var:

Birinci səbəb

Rusiya Xəzər dənizindən Suriya ərazisini raket atəşinə tutmaqla Xəzər dənizindəki hərbi hegemonluğunu ortaya qoydu. Rusiya Qərb dövlətlərinin Xəzərdəki fəaliyyətlərinin əleyhinə çıxır.

Kreml bu bombardmanla Qərb ölkələrinin və Xəzər sahili ölkələrin diqqətinə çatdırır ki, Xəzərdə Rusiyanın hərbi qüdrəti ilə hesablaşmalıdırlar. Halbuki, bugünə qədər Rusiyalı rəsmilər deyirdilər ki, Xəzər sülh dənizi olmalıdır. Deməli bu prinsipi birinci elə özləri pozdular.

İkinci səbəb

Rusiya bu bombardmanla hərbi dəniz donanmasının gücünü göstərdi. Uzun illərdir ki, Rusiyanın hərbi gəmiləri yaxın və uzaq ölkələrdə hansısa hədəfə raket zərbəsi endirməmişdi. Rusiyada yeni hərbi texnologiyalar və yeni nəsil raketlər istehsal olunub.

Xəzərdən Suriyanın bombalanması Rusiyaya imkan verdi ki, müasir hərbi dəniz donanmasını və yeni raketlərini dünyaya nümayiş etdirə bilsin.

Üçüncü səbəb

Rusiyanın Xəzər dənizindən Suriyanı bombalaması Azərbaycana da mesajdır ki, rəsmi Bakı dənizin dibi ilə Türkmənistana boru xətti tikintisi layihəsinə dəstək verməsin.

Türkmənistanla Azərbaycan arasında Xəzərin dibi ilə boru xəttinin tikintisinə ən çox lobbiçilik edənlər Türkiyə, Avropa Birliyi və ABŞ-dır.

Ancaq əgər rəsmi Bakı bu layihəyə maraq göstərməsə Transxəzər layihəsi alınmayacaq. Rusiyanın məqsədi rəsmi Bakını Xəzərin dibi ilə bağlı layihədə geri addım atmağa məcbur etməkdir",deyə təhlildə bildirilib.

Bununla yanaşı göstərilib ki, Rusiyanın Xəzər dənizində Suriyanı raket atəşinə tutması Azərbaycanın enerji maraqlarına da təhlükə yaradır.

"Rusiya Xəzər dənizindən Suriyanı raket atəşinə tutacağını əvvəlcədən İran və İraqla razılaşdırıb. Çünki, raketlər bu iki ölkənin ərazisindən keçib Suruyadakı hədəfləri vurmalı idi.

Onsuz da həm İran, həm də İraq hakimiyyəti Rusiyanın Bəşər Əsədə hərbi dəstək verməsini alqışlayırlar. Moskva İran və İraq xaricində Xəzər sahili ölkələrə əvvəlcədən xəbər verməyib. Halbuki, sahilyanı ölkə olan Qazaxıstan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında Rusiyanın hərbi müttəfiqidir.

Azərbaycanın Xəzər dənizində neft və qaz yataqları var. Rusiya raketlərindən hər hansı birinin Suriya ərazisi əvəzinə yanlış hədəfi vurması bölgədə mürəkkəb vəziyyət yarada bilər.

Ümumiyyətlə Suriyaya görə Türkiyə-Rusiya münasibətlərinin gərginləşməsi Azərbaycanın maraqlarına toxunur.

Rəsmi Bakı Rusiyanın Suriya siyasətinə qarışmır, bu barədə açıqlama vermir. Ankara isə əksinə Rusiyanın Suriya siyasətini kəskin tənqid edir. Türkiyə Azərbaycanın strateji müttəfiqidir, rəsmi Bakı Rusiyanı isə strateji tərəfdaş adlandırır. Bu baxımdan rəsmi Bakı çətin seçim qarşısında qala bilər".